# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

Yaşar Qarayevin "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin və mərhələlər üzrə inkişaf etdirilməsinin ümumi konsepsiyasını" formalaşdırdığını bildirən İsa Həbibbəyli onun "Tarix: yaxından və uzaqdan" adlı monoqrafiyasında (1996) irəli sürdüyü mülahizələri, "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər" monoqrafiyasının "konkret tarixi dövrlərin ədəbiyyatına həsr olunsa da, məsələyə "ötən min ilin ədəbi-bədii təcrübəsi" əsasında" baxıldığını, monoqrafiyanın "İki min ili tamamlayan iki yüz il", "İki yüz ilə qədərki iki min ilə bir nəzər" adlı fəsillərində XIX və XX əsrlər Azərbaycan ədəbiyyatının inkişaf səviyyəsinə "çoxəsrlik davamlı ədəbi proseslərin qanunauyğunluqları işığında" baxıldığını, "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər" monoqrafiyasının "alimin ədəbiyyat tarixi konsepsiyasının konkret əməli ifadəsi və ya orijinal elmi modeli" olduğu qənaətini söyləyir: "Dərsliklərdən fərqli olaraq, portret-oçerkləri olmayan və yalnız icmal tipli problem-tədqiqatdan ibarət olan "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər" monoqrafiyası Azərbaycan ədəbiyyatşünaslıq elmində problem-tədqiqat formasında yazılmış ilk və mükəmməl elmi əsərdir". Yeri gəlmişkən, Yaşar Qarayevin XIX əsr və XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı tarixinə verdiyi təyinat onun dövrləşdirmə konsepsiyasının özünəməxsusluğunu təsəvvür etməyə şərait yaradır: "Milli intibah və istiqlal tarixinə XIX yüzil miqyaslı nəzəri düşüncə, təfəkkür yüzili kimi, XX yüzil isə üstəlik həm də əməli mübarizə və qəhrəmanlıq epoxası kimi daxil oldu".

Nəticə olaraq, Yaşar Qarayevin aşağıdakı fikirlərini ("Ədəbiyyat tarixi - xalqımızın dil və etnos, bədii təfəkkür və din, milli əxlaq və mənəviyyat tarixindən yaranan yolda hərəkətə başlamış karvandır") onun ədəbiyyat tarixçiliyi konsepsiyasının elmi-nəzəri düsturu kimi qiymətləndirir.

Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinə dair yeni təşəbbüslərin mövcudluğunu, bu sahədəki klassik formatın uzun müddət elmi dövriyyədən tam çıxmadığını qeyd edən İsa Həbibbəyli Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən 7 cilddə (əvvəlcə 6 cilddə - İ.H.) nəzərdə tutulan "Azərbaycan ədəbiyyatı tarixi"nin artıq 2004-2011-ci illərdə çapdan çıxmış 4 cildindəki icmallarda və portret-oçerklərdə "azərbaycançılıq məfkurəsinə əsaslanmaq və bəşəri dəyərlərə istinad etmək əsas prinsip kimi" qəbul olunduğunu, bu 4 cilddə "xüsusi bir dövrləşdirmə aparılmasa da, Azərbaycan ədəbiyyatı tarixi əsrlər üzrə xronoloji qaydada mərhələlərə ayrılaraq elmi-nəzəri təhlil əsasında" təqdim edildiyini yazır.

Son illərdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları Baloğlan Şəfizadə, Elməddin Əlibəyzadə və Bədirxan Əhmədovun çap etdirdikləri "Azərbaycan ədəbiyyatı tarixi" kitablarını "ədəbiyyat tarixinin müxtəlif dövrlərinə işıq salan əhəmiyyətli tədqiqatlar" kimi qiymətləndirir. Baloğlan Şəfizadə və Elməddin Əlibəyzadənin "Azərbaycan ədəbiyyatı tarixi" kitablarının "ədəbiyyatımızın nisbətən az öyrənilmiş ən qədim dövrünü əhatə edən böyük tarixi mərhələnin tədqiqinə" həsr olunduğunu, bu tədqiqatların "Azərbaycan ədəbiyyatı tarixinin qədim dövrünün hüdudlarını müəyyən etmək və mahiyyətini açmaq baxımından" əhəmiyyət kəsb etdiyini yazır.

Müstəqillik illərində Bakı Dövlət Universitetində ali məktəblər üçün dərslik kimi yaranmış 2 cildlik "Müasir Azərbaycan ədəbiyyatı" kitabını "Azərbaycan sovet ədəbiyyatının ilk dəfə olaraq "sovet dövrü ədəbiyyatı" formasında təqdim olunması, yəni ədəbiyyatın tam olaraq ideologiyaya tabe etdirmədən dəyərləndirilməsi müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq elminin obyektiv elmi-nəzəri baxışlarından doğan real qiymətləndirmə" hesab oluna biləcəyini, həm də dərsliyə ilk dəfə olaraq "Cənubi Azərbaycan ədəbiyyatı" və "Azərbaycan mühacir ədəbiyyatı" adlanan fəsillərin daxil edilməsinin də "Azərbaycan ədəbiyyatı tarixinin müasir mərhələsinə əhatəli elmi baxışı" hesab edir.

Professor Şirindil Alışanlının tədqiqatlarını "konkret dövrləşdirmədən çox dövrləşdirmənin nəzəri-metodoloji prinsiplərinin müəyyən edilməsinə" həsr olunduğunu qeyd edir. Tədqiqatçının "ədəbiyyat tarixinin dövrləşdirmə konsepsiyasının müəyyənləşdirilməsində sivilizasiya amilinin nəzərə alınmasını zəruri faktorlardan biri" sayması, ədəbiyyat tarixçiliyi üçün əsas meyarlardan sayılan "ədəbi-tarixi dəyərlərin dövrləşdirilməsi", "tarixilik prinsipinin bərqərar olması" kimi amillərə əsaslanmağın zəruriliyinə diqqəti çəkməsi, onun elmi-nəzəri araşdırmalarının "XX əsr boyu Azərbaycan ədəbiyyatşünaslığında milli ədəbiyyat tarixinin dövrləşdirilməsi üzrə irəli sürülmüş konsepsiya axtarışlarına yekun vuran ümumiləşdirici tədqiqat əsəri kimi" əhəmiyyəti açıqlanır: "Bu, əslində, Azərbaycan ədəbiyyatşünaslıq elminin ədəbiyyat tarixçiliyi baxımından istinad edilməli olan əsas nəzəri-metodoloji prinsiplərini diqqət mərkəzinə çəkməklə konkret olaraq çoxəsrlik inkişaf mərhələləri üzrə dövrləşdirmə zərurətini ifadə edən tədqiqatdır. Fikrimizcə, Şirindil Alışanlının araşdırmaları ilə Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi üzrə konsepsiya axtarışları başa çatır, real olaraq milli ədəbiyyat tarixçiliyinin vahid elmi konsepsiyasının formalaşdırılması və inkişaf mərhələlərinin müəyyən edilməsi baxımından konkret qəti addımın atılması dövrü başlanır".

Professor Nizaməddin Şəmsizadənin "Azərbaycan ədəbiyyatşünaslığı" monoqrafiyasında Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələlərinin özünəməxsus yer tutduğunu söyləyir: "Müəllif XX əsrin əvvəllərində Azərbaycan elmi-ədəbi fikrində baş vermiş ədəbiyyat tarixi axtarışlarını əhatəli şəkildə araşdırmış, elmi ümumiləşdirmələr aparmışdır".

N.Şəmsizadənin tədqiqatında ilk növbədə "XX əsrin əvvəllərində meydana çıxmış ədəbiyyat tarixləri və ədəbi-tənqidi materiallar əsasında ədəbiyyat tarixi konsepsiyası istiqamətindəki elmi axtarışlar və nəzəriyyələrin" təhlildən keçirildiyini, həm də "ədəbiyyat tarixinin problemləri üzrə yazılı ədəbiyyatın mənşəyinə dair yanaşmalara" nəzər saldığını, "mərhələlərinin müəyyən edilməsi üçün zəruri olan prinsipləri" diqqət mərkəzinə çəkdiyini, "konkret elmi mövqe" nümayiş etdirmiş olduğunu təqdir edir: "Onun söz sənətinin mənşəyi və mahiyyəti, poetik təfəkkürün formalaşması problemləri ətrafında apardığı tədqiqat da nəticə etibarilə Azərbaycan ədəbiyyatı tarixinin mərhələlərinin təsnif edilməsi üçün meyarların müəyyən olunması baxımından əhəmiyyət kəsb edir".

Bütövlükdə, aparılmış tədqiqat, irəli sürülmüş elmi müddəaları "Azərbaycan ədəbiyyatı tarixi üzrə təsnifatı yenidən hazırlamaq zərurətini diqqətə çatdırması baxımından əhəmiyyətli" sayan İsa Həbibbəyli müstəqillik dövrünün nəşrlərinə diqqəti çəkir. Bu cəhətdən Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyində yeni epoxanın iki mərhələdə: "Sovet hakimiyyətinin



son illərindən müstəqillik dövrünə, "keçid əlamətləri" ilə səciyyələnən" 1990-cı illərin axırlarınadək olan ədəbiyyat və Azərbaycan ədəbiyyatının "XXI əsrdən başlayaraq tədricən tam müstəqillik şəraitinin yaratdığı relslər üzərində inkişaf edərək ölkənin müstəqil ədəbiyyatı kimi özünü təsdiq etdiyi" bizim günlərə qədər davam edən ədəbiyyat mərhələləri üzrə geniş və sistemli şəkildə tədqiq olunmuşdur" - fikrindədir.

Xarakterinə görə müstəqillik dövrü Azərbaycan ədəbiyyatının, "çoxmetodlu ədəbiyyat kimi" səciyyələndirilməsini doğru sayır: "Müstəqillik dövrü ədəbiyyatı ənənəvi realizm və romantizm cərəyanları ilə birlikdə dünya ədəbi-ictimai fikrində gedən proseslərlə əlaqədar olaraq bu tarixi mərhələnin özünün meydana çıxardığı yeni ədəbi cərəyanları da diktə etmişdir: postmodernizm, dekadentizm və magik realizm. Ədəbi cərəyanların və bədii metodların qovşağında da maraqlı bədii əsərlər meydana çıxmaqdadır".

Monoqrafik səciyyə daşıyan "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı"nda yeni tarixi epoxanın ədəbiyyatının ədəbi növ və janrlar üzrə təhlil olunduğu, bütün istiqamətlər sahəsindəki yeniləşmə və dəyişikliklər elmi təhlilin süzgəcindən keçirildiyi qənaətindədir.

Təyyar Salamoğlunun Xalq Cümhuriyyəti dövründən XX əsrin axırlarına qədərki ədəbiyyatı əhatə edən "Müasir Azərbaycan ədəbiyyatı" adlı dərs vəsaitini, onun "ilk dəfə olaraq Azərbaycan sovet ədəbiyyatını bu mərhələnin daşıyıcısı olan yazıçılarla bərabər, həm də "repressiya olunan və mühacirətdə yaşayan sənətkarların yaradıcılıqlarının məcmusu kimi" təqdim etdiyini bildirir.

Alxan Bayramoğlunun "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki" kitabını "milli ədəbiyyatın əsrdən-əsrə keçdiyi təkamül proseslərini xronoloji qaydada izləməyə imkan yaradan əhəmiyyətli elmi mənbə" kimi qiymətləndirir.

Vəli Osmanlının Türkiyədə nəşr edilmiş "Türk xalqları ədəbiyyatlarının ortaq başlanğıcı (VI-X əsrlər)" kitabı Azərbaycan yazılı ədəbiyyatının tarixinə ortaq ümumtürk abidələrindən başlanmasının zəruriliyinin ilk dəfə olaraq elmi cəhətdən əsaslandırıldığı, Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi baxımından xüsusi əhəmiyyətə malik əsər kimi qiymətləndirilir: "Müəllifin Orxon-Yenisey abidələrini nəzərdə tutaraq gəldiyi qənaətlər milli ədəbiyyat tarixinin mənşəyinə müstəqillik dövrü işığında dərin elmi yanaşmanın obyektiv məntiqi ifadəsidir: "Bu ədəbi bəlgələr, bədii nümunələr türk xalqlarının ortaq qədim ədəbi-mədəni sərvəti olması etibarilə, onların (bütün türk xalqlarının - İ.H.) ədəbiyyat tarixinin erkən çağlarının, VI-X əsrlərin məhsuludur. Türk xalqlarının hər biri öz ədəbiyyatının başlanğıcını VI-X əsrlərin bu ortaq ədəbiyyatında aramalıdır".

XX əsrin əvvəllərində Əmin Abidin "Azərbaycan türklərinin ədəbiyyat tarixi" kitabında Orxon-Yenisey abidələrindən, həm də Azərbaycan yazılı ədəbiyyatının qədim dövrünün ədəbiyyatı kimi söz açdığı, Baloğlan Şəfizadənin "Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər)" (2003) və Elməddin Əlibəyzadənin "Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər)" (2009) kitablarında milli ədəbiyyat tarixinə Orxon-Yenisey abidələrindən başlanıldığı, Ədəbiyyat İnstitutunun hazırladığı yeddicildlik "Azərbaycan ədəbiyyatı tarixi"ndə ədəbiyyat tarixinin ortaq ümumtürk abidələrindən başlanması nəzəri prinsip kimi qəbul edildiyi və ikinci cilddə həmin abidələrin geniş elmi təhlili verildiyi qeyd edilir: "Ədəbiyyat tarixinin ortaq ümumtürk Orxon-Yenisey abidələrindən başlanması qənaəti müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığının gəldiyi ümumi yekun nəticədir. Bu, dövlət müstəqilliyinin əldə olunmasından sonra ölkədə meydana çıxmış milli-mənəvi özünüdərk, soykökə qayıdış proseslərinin təbii məntiqindən doğan elmi qənaətdir. Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi konsepsiyası hazırlanarkən də həmin elmi prinsipə əməl olunmuşdur".

İsa Həbibbəyli bu araşdırmalarına əsasən uzun dövr ərzində Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələsinin "xüsusi bir elmi problem" kimi qoyulmadığını, lakin ən müxtəlif tarixi dövrlərdə bu barədə müəyyən elmi təşəbbüslər və çağırışların meydana çıxdığını, dövrləşdirmənin ayrı-ayrı mərhələlərinin öyrənilməsinə dair addımlar atıldığını, bu baxımdan Yaşar Qarayevin XXI əsrin başlanğıcında irəli sürdüyü fikirlər ("Əlbəttə, gerçəkliyin öz təsnifatını elmə və tarixə olduğu kimi gətirmək lazımdır: necə var, elə. Bu mərhələlərdən birini, yaxud digərini tarixin arxivinə vermək yolu ilə yox, bəlkə, hər birini olmuş, baş vermiş real keçmişimizin özü kimi, bütün təzadları, faciəsi, səhvləri və uğurları ilə birlikdə, bədii idrakımızın və ictimai əxlaqımızın təcrübəsi və dərsləri kimi öyrənmək yeganə doğru yoldur. Lakin təəssüf ki, bütöv-bütöv dövrləri, yüzilləri, hətta eraları tədqiqatda əhatə olunan tarixlərdən çıxdaş eləmək bizim mövcud humanitar - filoloji ənənələrin ən sürəkli əyintilərindən biri olub".) Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi probleminin aktuallığını ifadə edən obyektiv çağırışlar olduğu qənaətindədir.

*(Davamı var)*

*Gülxani PƏNAH*